# Robot Oyunu Stolunun Quraşdırılma təlimatları

2023-24 SUPERPOWERED℠ sezonu

# Rəsmi stol

Mümkünsə, sahəni rəsmi robot oyun stoluna qoyun. Bölüşmək üçün bir stol tapın və ya aşağıdakı təlimatlardan istifadə edərək stol quraşdırın (əsas alətlər və taxta emalı bacarıqları tələb olunur). Stol tapa bilmirsinizsə və ya quraşdıra bilmirsinizsə, bunun əvəzinə sahənizi təmiz hamar möhkəm döşəmənin üzərinə yerləşdirə bilərsiniz.

## XÜSUSİYYƏTLƏR

- Daxil tərəfdən divardan divara ölçülər olmalıdır:
  - **Uzunluq** = 93±1/8” (2362±3mm)
  - **En** = 45±1/8” (1143±3mm)
- Sərhəd divarının hündürlüyü aşağıdakı diapazonda olmalıdır:
  - **Hündürlük** = 2-1/2” (64mm) - 4” (102mm)
- İstənilən stolun bütün sərhəd divarları bir-biri ilə eyni hündürlükdə **(Hündürlük)** olmalıdır.
- Sərhəd divarlarının qalınlığı 2.0” (51mm) həddini keçməməlidir.

## MATERİALLAR

| Material | Say |
|---|---|
| "Challenge" dəsti (Missiya modeli üçün LEGO hissəcikləri, Dual Lock) | 1 |
| Cilalanmış taxta (və ya çox hamar lövhə) , 96” x 48” x min. 3/8” (2438mm x 1219mm x min. 10mm) | 1 |
| İkinin üçə , 8’ (2438mm) [həqiqi çarpaz hissə= 1-1/2” x 2-1/2” (38mm x 64mm)] | 3 |
| Mat qara boya | 1 qt. (1 L) |
| Alçipan şurupu, 2-1/2” (64mm) | 1/4 lb. (1/4 kg) |
| Əlavə: Tikinti dayağı - hündürlüyü 28'' (610 mm) eni 36'' (914 mm) | 2 |

XƏBƏRDARLIQ

*Tikinti dayaqları turnirdə gözlənilən hündürlüyü təmin etmək üçün əlavə üsuldur. Bu könüllü olaraq alınmalıdır. "İkinin dördə" sərhəd divarlarına icazə verilir və belə sərhədlər geniş yayılıb, lakin turnirlərdə mərhələli şəkildə ləğv edilirlər. FIRST LEGO League-in qlobal əhatəsini qeyd edərkən, materialların bütün dünyada ölçüyə görə fərqləndiyini deyə bilərik. Komandalar, sərhəd divarının hündürlüyü istənilən diapazonda olan və divar qalınlığı 2,0” (51 mm)-dən kiçik bərabər olan stollarda oynamağa hazır olmalıdırlar.*

## HİSSƏLƏR

| Hissə | Material | Ölçülər | Rəngləmə | Say |
|---|---|---|---|---|
| Stolun səthi (A) | Faner | 96” (2438mm) x 48” (1219mm) | Matın qərb tərəfini | 1 |
| Uzun sərhəd divarı (B) | İkinin üçə | 96” (2438mm) | Hə | 2 |
| Qısa sərhəd divarı (B) | İkinin üçə | 45” (1143mm) | Hə | 2 |
| Tikinti dayağı | Alınma | H ≈ 24” (610mm) W ≈ 36” (914mm) | Yox | 2 |

**YIĞILMA**

- Fanerin (A) ən hamar səthində divardan divara EN və UZUNLUQ ölçülərinin dəqiq olduğundan əmin olaraq, sərhəd divarlarına (B və C) perimetr boyu şuruplar birləşdirin.
- Stolu üst sərhəd divarları üzü yuxarıya olmaqla, qısa tikinti dayaqlarının üzərinə (və ya qısa, müəyyən səviyyəli və möhkəm hər hansı bir şeyin üzərinə) yerləşdirin.




**TURNİR QURULUŞU:**

- Turnirdə, aşağıdakı diaqramda göstərilmiş və bir-biri ilə üzbəüz qoyulmuş iki rəsmi stol olur.
- Bu sərhəd divarları boyunca **"M"** tam/ümumi aralığı 3.0" (76mm) - 4.0" (102mm) arasında olmalıdır. "M"-in ölçüsünü düzgün əldə etmək lazım olsa, stolların arasında şaybalar yerləşdirmək olar.
- Turnirdəki olan bütün stollardakı hər bir sərhəd divarı bir-biri ilə eyni hündürlüyə malik olmalıdır.
- Turnirdəki bütün stul cütləri bir-biri ilə eyni M aralığına malik olmalıdırlar.
- Tədbirə gələn bütün komandalara bu barədə məlumat verilmədikcə sərhəd divarlarının yuxarı hissələrinə heç nə bağlamayın.




**STANDARD DİVARLAR** **NAZİK DİVARLAR (ŞAYBA OLMALIDIR)**

**SAHƏ MATI YERLƏŞMƏSİ**

Matınızı quraşdırarkən aşağıdakı addımları yerinə yetirdiyinizdən əmin olun:

1. Masanın səthinin üzərində nahamarlıqların olub olmadığını yoxlayın. Onları hamarlayın və ya yığıb yaxşıca tozsoranlayın.
2. Yalnız tozsoranlanmış stolun üzərinə matı aşağıda göstərildiyi formada açın və yerləşdirin. Matı heç vaxt qatlamayın və yuvarlanmış matı əzməyin və ya onu əyməyin.
3. Matı alt sərhəd divarına doğru sürüşdürün və mərkəzləşdirin. Təxminən 1/4 inç (6 mm) olan üst divardan başqa heç bir yerdə boşluq olmamalıdır. Stolun ölçüsü və matın yerləşdirilməsi düzgün olduqda, görüşün solunda və sağında olan sahələr təxminən X = 6,75 inç və Y = 45 inç (171 mm x 1,143 mm) olur.
4. Əlavə: Matı yerində saxlamaq üçün yalnız matın sol və sağ sərhədlərini əhatə edən nazik qara skotçdan istifadə edə bilərsiniz.




**MATI AŞAĞI İSTİQAMƏTDƏ SÜRÜŞDÜRÜN**

**ALÇAQ STOLUN HÜNDÜRLÜYÜ**

- Bəzi komanda üzvləri, hakimlər və digər könüllülər alçaq stolun hündürlüyünü çox bəyənirlər və bəziləri hətta bunu tələb edə bilərlər.
- Lütfən, stolları döşəmədən hardasa 24 inç (610 mm) hündürlükdə dəstəkləmək üçün əlinizdən gələni edin ki, hər kəsə bacardıqları qədər sahəni görməyə kömək edin.